**Fakültəni bitirən görkəmli şəxsiyyətlərin bəziləri**



**Həsən Əziz oğlu Həsənov:** 20 oktyabr 1940-cı ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olmuşdur. 1958-ci ildə Tbilisidə 43 saylı orta məktəbi bitirərək, Bakıya gəlmiş və Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1963-cü ildə həmin tədris müəssisəsində təhsilini başa çatdırmışdır. 1981-ci ildə Bakı Ali Partiya məktəbini bitirmişdir. Tələbəlik dövründə qrup, fakültə və institut Komsomol Komitəsinin katibi olmuşdur. 1962-ci ildə Azərbaycan tələbələrinin təmsilçisi kimi Moskvada keçirilən XIV Ümumittifaq Komsomol Qurultayına nümayəndə seçilmişdir. Azərbaycanın və SSRİ-nin bir sıra gənclər təşkilatının üzvü olmuşdur.

1960-cı ildən 1963-cü ilə qədər Bakı şəhər Tələbə Şurasının sədri, Bakı Şəhər Komsomol Komitəsində təlimatçı (1962), Yasamal rayon Komsomol Komitəsinin katibi (1962-1965), Respublika Komsomol Komitəsi MK-də bölmə müdiri vəzifələrində çalışmışdır (1965-1966). 1966-1967-ci illərdə Tikinti Materialları və Konstruksiyaları Elmi-Tədqiqat İnstitutunun aspiranturasında elmi-tədqiqatla məşğul olmuşdur.

1967-1969-cu illərdə AKP MK-da təlimatçı vəzifəsində çalışmışdır.

1969-1971-ci illərdə Moskvada Ümumittifaq Komsomolunun Mərkəzi Komitəsində məsul təşkilatçı vəzifəsində işləmişdir. 1971-ci ildə Vətənə qayıtmış, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində əvvəl təlimatçı, sonra bölmə müdiri (1971-1975), şöbə müdirinin müavini (1975) vəzifəsində çalışmışdır.

1975-1978-ci illərdə Səbael Rayon Partiya Komitəsinin 1-ci katibi, 1978-1979-cu illərdə Sumqayıt Şəhər Partiya Komitəsinin 1-ci katibi, 1979-1981-ci illərdə isə Gəncə (Kirovabad) Şəhər Partiya Komitəsinin 1-ci katibi vəzifələrində işləmişdir.

1981-1983-cü illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi, 1983-1988-ci illərdə tikinti məsələləri üzrə katibi, 1988-1990-cı illərdə iqtisadiyyat məsələləri üzrə katib vəzifələrində fəaliyyət göstərmişdir.

1990-1992-ci illərdə Azərbaycan Respublikasının baş naziri vəzifəsində çalışmışdır.

Həsən Həsənov 1992-ci ildən xarici siyasət və diplomatiya sahəsində fəaliyyət göstərir.

1992-1993-cü illərdə BMT-də (Nyu-York) Azərbaycan Respublikasının daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfiri vəzifəsində işləmişdir.

1993-1998-ci illərdə AR xarici işlər naziri vəzifəsində işləmişdir. Həmin illərdə BMT və YUNESKO, İKT-nin illik toplantılarında Azərbaycan Nümayəndə Heyətinə rəhbərlik etmişdir.

1977-1995-ci illərdə Azərbaycan Ali Sovetinin, 1979-1984-cü illərdə SSRİ Ali Sovetinin, 1995-2000-ci illərdə Milli Məclisin nümayəndəsi və Milli Məclisin Beynəlxalq əlaqələr üzrə Komissiyasının üzvü kimi fəaliyyət göstərmişdir.

Müstəqil Azərbaycanın ilk Əsas Qanununu hazırlayan Konstitusiya komissiyasının üzvü olmuşdur. Üçüncü Respublikamızın ilk baş naziri, ilk fövqəladə və səlahiyyətli səfiridir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü il sentyabr ayının 1-də Azərbaycan Respublikasının Macarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri, 2010-

cu il mart ayının 30-da isə Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

Həsən Həsənov elmi və bədii yaradıcılıqla da məşğuldur. O, Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş dahi mütəfəkkir Mirzə Fətəli Axundovun həyat və fəaliyyətinə həsr edilmiş "Brüsseldən məktublar" pyesinin müəllifidir. H.Həsənov Tarixin hədəfi (Tarixin fəlsəfəsi), Nəriman Nərimanovun milli dövətçilik baxışları və fəaliyyəti, Türklüyümüz, Misir amuleti və ieroqlifləri Azərbaycanda adlı monoqrafiyaların, Azərbaycanın Avropaya inteqrasiyası əsərinin, çoxsaylı çıxışlar və məqalələr toplularının müəllifidir.

2004-cü ildə Bakıda “SSRİ-də milli təmayülçü hərəkat" mövzusunda namizədlik, 2006-cı ildə Tiflisdə "Tarixin fəlsəfəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Azərbaycan, türk, ingilis, rus, gürcü dillərini bilir.

Evlidir, həyat yoldaşı Aybəniz Həsənova Azərbaycan Memarlıq və İnşaat Universitetinin Landşaft Memarlıq Kafedrasının professoru və müdiridir.

Bir oğlu, bir qızı və nəvələri var.